## 31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR

*Təhsil millətin gələcəyidir!*

Heydər Əliyev

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

# AZƏRBAYCAN MÜƏLLİMİ

29 dekabr 2023-cü il №50 (9058) www.muallim.edu.az muallim@edu.gov.az





# BİZ BU GÜN AZAD QARABAĞDA, AZAD ŞUŞADA DÜNYA AZƏRBAYCANLILARININ QURULTAYINI KEÇİRİRİK



**Heydər ƏLİYEV,**
**Ümummilli Lider**

Dünya azərbaycanlılarının I qurultayı müstəqil Azərbaycanın həyatında, bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisədir. Bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycan icmalarının nümayəndələri ilk dəfə olaraq Azərbaycana, onun paytaxtı Bakı şəhərinə toplaşmışlar və özlərinin I qurultayını keçirirlər... Ancaq bizim üçün ən çətin problem, bizi ən çox narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir... Əmin olduğumu bildirmək istəyirəm ki, biz bu münaqişənin də ləğv olunmasına, aradan götürülməsinə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar...

**Azərbaycan xalqına eşq olsun!**
**Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır... Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

**Yaşasın Şuşa! Yaşasın Qarabağ!**
**Hamımız birlikdə: Qarabağ Azərbaycandır!**